İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Sentyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 12 sentyabr tarixli müvafiq Sərəncam imzalanmışdır.

Qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafının təmin edilməsi, ölkə əhalisinin, xüsusən də bu sahədə çalışan insanların sosial rifahının yaxşılaşdırılması və məşğulluğun artırılması həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Bu məqsədlə görülən tədbirlər nəticəsində iqtisadiyyatın şaxələndirilməsi ilə yanaşı, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi də xeyli artmışdır.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı, əhalinin bu məhsullara tələbatının ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və son məhsul çeşidlərinin artırılması istiqamətində dövlət dəstəyini gücləndirmək məqsədi ilə bir sıra əhəmiyyətli tədbirlər görülmüş və uğurlu nəticələr əldə olunmuşdur.

Bu sahədə dayanıqlı inkişafın təmin edilməsi, tələbatın yerli istehsal hesabına təmin olunması, habelə ixrac imkanlarının genişləndirilməsi üçün əkin sahələrinin və məhsuldarlığın artırılması, toxumçuluq və tingçilik təsərrüfatlarının inkişafı, informasiya-məsləhət xidmətlərinin, kadr potensialının gücləndirilməsi, investisiyaların və ixracın təşviqi, zəruri infrastruktur və maliyyə resursları ilə təminat səviyyəsinin daha da yüksəldilməsi, suvarma sistemlərinin təkmilləşdirilməsi tədbirlərinin sürətləndirilməsi zəruridir.
Qeyd edilənləri nəzərə alara, Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycanda sitrus meyvələri, çay və çəltik istehsalının inkişafının sürətləndirilməsi, bu sahənin potensial imkanlarından daha səmərəli istifadə edilməsi və məhsul istehsalına əhalinin marağının artırılması məqsədi ilə Sərəncam imzalanmışdır.

Sözügedən Sərəncama əsasən, Lənkəran, Şəki, Yevlax, Ağdaş, Astara, Biləsuvar, Göyçay, Lerik, Masallı, Ucar, Zaqatala və Zərdab rayon icra hakimiyyətlərinə verilən tapşırıqlar arasında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və digər aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla, sitrus meyvələri, çay və çəltik istehsalının artırılması üçün müvafiq infrastrukturun yaradılmasının iqtisadi cəhətdən səmərəliliyini nəzərə alaraq əkinəyararlı torpaqların müəyyən olunmasını və təsərrüfat subyektlərinə ayrılmasını təmin etmək öz əksini tapmışdır.

Eyni zamanda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aşağıdakı tapşırıqların həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə rayon icra hakimiyyəti orqanlarının təkliflərini və bu sahədə mövcud olan müsbət təcrübəni nəzərə almaqla, müvafiq rayonlar üzrə sitrus meyvələri, çay və çəltik istehsalının inkişafına dair proqramların layihələrinin 3 ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə çay plantasiyaları və sitrus meyvə bağları sahələrinin genişləndirilməsini stimullaşdırılmaq üçün təsərrüfat subyektlərinə dəstək mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflərin 3 ay müddətində hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;
- "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən sitrus meyvələri, çay və çəltik istehsalçılarına zəruri kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların lizinq yolu ilə icarəyə verilməsini və ya satılmasını, onlara texniki servis xidməti göstərilməsini, habelə dövlət büdcəsi vəsaiti hesabına alınan pestisidlərin, mineral gübrələrin, tinglərin və toxumların güzəştli şərtlərlə satılmasının təmin edilməsi;
- yerli və xarici çəltik sortlarının sınağının təşkilini, habelə seleksiya nailiyyətlərinin Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin dövlət reyestrinə daxil edilməsinin təmin edilməsi;
- sitrus meyvələri və çay bitkisinin tingçilik təsərrüfatlarının inkişafının dəstəklənməsi ilə bağlı zəruri tədbirlərin görülməsi;
- sitrus meyvələri, çay və çəltik istehsalı sahəsində fitosanitar, informasiya-məsləhət xidmətlərinin və kadr potensialının gücləndirilməsi

ilə bağlı zəruri tədbirlərin görülməsi.

Verilən tapşırıqlar arasında, eyni zamanda, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi də Sərəncam çərçivəsində öz əksini tapmaqdadır:

- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə çayçılıq sahəsinin inkişafının davamlı olaraq dəstəklənməsinin təmin edilməsi, fermerlər, tədarükçülər, emalçılar və ixracatçıların dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin daha səmərəli təşkil edilməsi üçün çay istehsalçıları və ixracatçıları assosiasiyasının yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi;
- sitrus meyvələri, çay və çəltik istehsalçıları və emalçılarının investisiya layihələrinin, qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə maliyyələşdirilməsinin təmin edilməsi;
- qabaqcıl texnologiyalar tətbiq etməklə sitrus meyvələri, çay və çəltik istehsalının artırılmasına, emal və qablaşdırma müəssisələrinin yaradılmasına və inkişafına dəstəyi, o cümlədən bu sahəyə qoyulan investisiyaların təşviqinin davam etdirilməsi;
- sitrus meyvələri, çay və çəltik istehsalı ilə məşğul olan sahibkarların istehsal etdikləri məhsulların ixrac potensialının artırılmasına, mümkün tərəfdaşların tapılmasına və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsinə, iş adamlarının ixracla bağlı biliklərinin artırılmasına dəstək tədbirlərinin daha da genişləndirilməsinin təmin edilməsi.

Dövlət başçısı tərəfindən verilmiş tapşırıqlar çərçivəsində, eyni zamanda:

- Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən sitrus meyvələri, çay və çəltik istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin istifadəsindəki və ya onların istifadəsinə veriləcək yeni torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınmasının təmin edilməsi;
- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən müvafiq rayonlar üzrə çay plantasiyalarının, çəltik tarlalarının və sitrus meyvə bağlarının meliorativ vəziyyətinin və su təminatının yaxşılaşdırılması, sututarların bərpa olunması, çəltik tarlalarında drenaj şəbəkələrinin tikilib istifadəyə verilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi;
- Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası tərəfindən aqrar sahədə sığortanın inkişaf etdirilməsi ilə bağlı tədbirlərin sürətləndirilməsinin təmin edilməsi;

kimi tədbirlərin həyata keçirilməsi yer almaqdadır.

Qeyd edilənləri və sözügedən Sərəncamın vacibliyini əks etdirmək məqsədilə, burada bir sıra məqamların vurğulanması yerinə düşər. Belə ki, ölkə iqtisadiyyatında mühüm yer tutan sahələrdən biri kimi aqrar sahə dövlətin diqqət mərkəzindədir. Bu sahənin inkişafı həm sosial baxımdan, həm ölkənin iqtisadi maraqlarının təmin edilməsi baxımından, həm də ətraf mühitin qorunması baxımından strateji əhəmiyyət kəsb edir. Kənd yerlərinin inkişaf etdirilməsi, kəndin infrastruktur problemlərinin həll edilməsi, hər bir regionun təbii iqlim şəraiti nəzərə alınaraq kənd təsərrüfatının müvafiq sahələrinin stimullaşdırılması, suvarma, irriqasiya və meliorasiya tədbirlərinin həyata keçirilməsi və bir çox digər tədbirlər qeyd olunan sosial, iqtisadi və ekoloji problemlərin həllinə yönəlmişdir. Bu baxımdan Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dövrün tələbindən irəli gələrək zəruriliyi ilə diqqəti cəlb etməkdədir.

Statistikaya nəzər salanda maraqlı mənzərənin şahidi olmaq mümkündür. Belə ki, 2000-ci ildə ölkədə 4463 hektar çəltik əkini sahəsi olmasına baxmayaraq, sonralar çəltiyin əkin sahəsində davamlı azalma meyilləri özünü göstərmiş və 2007-ci ildə 76.4% azalaraq 1055 hektara düşmüşdür. 2007-ci ildən etibarən subsidiya sisteminin tətbiqi ilə bu sahədə canlanma yaranmışdır və 2016-cı ildə artıq ölkədə çəltik əkinlərinin ümumi sahəsi 2.4 dəfə artaraq 2511 hektara çatmışdır. Amma bu göstərici də, 2000-ci ilin göstəricisindən aşağı olaraq qalmaqdadır.

Əgər 2011-ci ildə ölkəyə 18.93 min ton düyü idxal edilmişdirsə, 2015-ci ildə bu göstərici 40.7% artaraq 26.64 min tona qalxmışdır. Göründüyü kimi, ölkədə düyüyə tələbat artmaqdadır. Nəzərə alınsa ki, düyü

ölkə əhalaisinin qida rasionunda əhəmiyyətli yer tutur, onda məlum olur ki, bu sahənin inkişaf etdirilməsinə ehtiyac vardır.

Azərbaycanın kənd təsərrüfatında xüsusi yer tutan sitrus meyvələrinin istehsalı da xüsusi əhəmiyyət kəsb etməkdədir. Bir tərəfdən regionun inkişaf etdirilməsi baxımından əhəmiyyətli olan sitrus meyvəçiliyi, digər tərəfdən də ixrac məhsulu kimi ölkənin ixrac potensialının artırılması baxımından dəyərlidir. Ölkənin əsas sitrus meyvələrinə limon, kivi, portağal, feyxoa və naringi aiddir. Statistika göstərir ki, son dövrlərdə bu məhsullara maraq artmaqdadır və bu məhsulların bağlarının sahələri artan dinamikaya malikdir. Əgər 2000-ci ildə ölkədə 94 hektar portağal bağı mövcud idisə, 2016-cı ildə bu göstərici 2.7 dəfə artaraq 255 hektara çatmışdır. Bu artım bütün məhsullar üzrə müşahidə edilmişdir. Belə ki, müqayisə olunan dövrdə limon bağları 4.8%, feyxoa bağları 54,1%, naringi bağları 52,9% artmışdır. Kivi ölkəyə nisbətən yeni gətirilmiş məhsuldur və əsasən 2006-cı ildən etibarən istehsal edilməyə başlamışdır. Göründüyü kimi, bu sahədə də istehsalçıların marağı göz önündədir. Sahənin ixrac potensialını nəzərə alaraq bu istiqamətdə stimullaşdırıcı tədbirlərin reallaşdırılması da bu baxımdan yüksək qiymətləndirilməlidir.

Ölkə iqtisadiyyatında əhəmiyyətli yer tutan məhsullardan biri də çaydır. Statistikaya nəzər salanda görünür ki, 2000-2010-cu illəri əhatə edən dövr ərzində çayçılıqda geriləmə müşahidə edilmişdir. Bunu çay əkmələrinin sahəsindəki azalma da göstərir. Belə ki, 2000-ci ildə ölkədə çay əkmələrinin ümumi sahəsi 5392 hektar olduğu halda, 2010-cu ildə bu göstərici 9.2 dəfə azalaraq cəmi 587 hektar təşkil etmişdir. Sonrakı dövrdə sahədə canlanma müşahidə edilmiş və çay əkmələrinin ümumi sahəsi 2010-cu illə müqayisədə 73.1 % artaraq 1016 hektara qalxmışdır. Amma buna baxmayaraq bu göstərici 2000-ci ildəki göstəricidən 5.3 dəfə aşağıdır.

Qeyd edilməlidir ki, hər il ölkəyə orta hesabla 18-20 milyon dollar həcmində çay idxal edilməkdədir. Bu, ölkədə çaya olan tələbatı göstərir və sahənin inkişaf etdirilməsinin zəruriliyini bir daha sübut edir. Bu baxımdan sərəncamda çayçılığın inkişaf etdirilməsi ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb etməkdədir.

Göründüyü kimi, sərəncamda inkişaf etdirilməsi nəzərdə tutulan sahələrin hər biri müxtəlif aspektlərdən ölkənin inkişafı baxımından əhəmiyyətli sahələrdir. Qeyd olunmalıdır ki, bu sahələrin inkişaf etdirilməsi üçün seçilmiş rayonlar hazırda həmin istiqamətlərdə daha böyük xüsusi çəkiyə malik rayonlardır və bu rayonlar həmin sahələrin inkişaf etdirilməsi üçün müvafiq təbii-iqlim şəraitinə malikdir. Sərəncamda məhsulların əkin sahələrinin və bağlarının regionlar üzrə düzgün strukturlaşdırılması diqqət mərkəzindədir ki, bu da kənd təsərrüftı istehsalının uğurlu təşkili üçün ilkin zəruri şərtlərdən biridir. Eyni zamanda, istehsal infrastrukturunun inkişaf etdirilməsinə də xüsusi önəm verilir ki, bu da istehsalın səmərəliliyinin təmin edilməsində öz rolunu oynayacaqdır. Qeyd olunanlarla yanaşı, müvafiq nazirliklərin və yerli icra hakimiyyəti orqanlarının işə yaxından cəlb edilməsi istehsalçılara zəruri dövlət dəstəyinin vaxtında və effektiv şəkildə göstərilməsini təmin etmiş olcaqdır.

Ümumilikdə isə, Sərəncamdan irəli gələn tapşırıqlar hər bir məhsul üzrə dəyər zəncirinin bütün həlqələrini əhatə etməyə imkan verir. Tapşırıqlar və yerinə yetirilməli təbirlər məntiqi ardıcıllıqla müəyyənləşdirilmişdir ki, bu da gələcək müvəffəqiyyətin təmin edilməsində öz rolunu oynayacaqdır və hər bir sahə üzrə inkişafa nail olunmasında öz töhfəsini verəcəkdir.

www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat